# Qəbələ sakinlərinin tibbi müayinəsi davam edir

Prezident cənab İlham Əliyevin tapşırığına əsasən, respublikamızın hər yerində olduğu kimi, Qəbələ rayonunda da əhalinin tibbi müayinədən keçirilməsi uğurla davam etdirilir.

Bununla əlaqədar əhalinin kütləvi dispanserizasiyası üçün rayonda hər cür şərait yaradılmışdır. Müayinələr rayon mərkəzi xəstəxanasında, diaqnostika mərkəzində, eləcə də qəsəbə və kənd tibb məntəqələrində həyata keçirilir. Yüksək ixtisaslı həkimlər vətəndaşları qabaqcadan tərtib olunmuş qrafik əsasında müayinə edir, zərurət olduqda onlar xüsusi olaraq ixtisaslaşmış tibb ocaqlarında müalicəyə cəlb olunurlar.

Aksiya bir daha onu göstərir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin fövqündə insan amili, vətəndaşların rifahının yaxşılaşdırılması və sağlamlığının qorunması məsələləri dayanır.

Rayonda tibbi müayinələrin mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə yaradılan komissiya tərəfindən ciddi hazırlıq işləri görülmüş, tibb ocaqları bütün lazımi avadanlıqlarla təchiz edilmişlər.

Fevral ayının 15-dən, mart ayının 31-dək rayonun səhiyyə ocaqlarında keçirilən aksiya zamanı 25506 vətəndaş tibbi müayinə olunub. Xəstəlik aşkar edilən şəxslər Qəbələ rayon Mərkəzi Xəstəxanasında müalicə edilirlər. Müayinələrdən sonra 109 nəfər stasionar, 720 nəfər ambulator müalicəyə cəlb olunub. Xəstəliyi daha ağır olan 182 nəfər isə müalicə üçün Bakı şəhərinə göndərilib.



Aksiyanın səmərəliliyini artırmaq üçün əhali arasında təbliğat işi davam etdirilir.

**«Qəbələ».**

**Foto İ. Vəlizadənindir.**

# Rayon mərkəzi xəstəxanasında qanvermə aksiyası keçirilmişdir



Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı, Mərkəzi Qan Bankının və onun Şəki bölməsinin iştirakı ilə Qəbələ Rayon Mərkəzi Xəstəxanasında “Qan ver, həyat bəxş et!” şüarı altında könüllü qanvermə aksiyası keçirilmişdir. Aksiya zamanı 110 nəfər könüllü olaraq qan vermişdir.

Tədarük olunan qan və qandan hazırlanan preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan bütün xəstələrin müalicəsində istifadə olunacaqdır.

**Foto S. Umuyevindir.**

# Hücuma keçibdi Milli Ordumuz

Çoxdan gözləyirdik bu şad xəbəri,
Bürüyüb bu xəbər kəndi, şəhəri,
Sən demə gecənin varmış səhəri.
Qalmaz əsarətdə daha yurdumuz,
Hücuma keçibdir Milli Ordumuz.

Hər şey cəbhə üçün, bu şüarla biz
Bütün ürəklərə salmalıyıq iz.
Nə var insan üçün vətəndən əziz,
Cavabsız qalmasın sual-sorğumuz,
Hücuma keçibdir Milli Ordumuz.

Olmasa yolunda bir ölən-itən,
Başını dik tuta bilərmi Vətən?
Qalayın ay ellər, qalayın həmən
Daha da gur yansın ocaq-odunuz,
Hücuma keçibdir Milli Ordumuz.

Dolanıb gəzsə də ər ocağında,
Xərin nə işi var nər ocağında.
Doğma Qarabağın hər bucağında
Sözsuz çalınacaq zəfər şurumuz,
Hücuma keçibdir Milli Ordumuz.

Nəsibi gah nalə, gah da olsa ah,
Haqlıya haqsızlıq eyləməz Allah.
Cəlil, inanıram bir gün inşallah
Əriyib gedəcək qəlbdən buzumuz,
Hücuma keçibdir Milli Ordumuz.

**Cəlil KOMRADLI,**
**Dizaxlı kəndi.**

# Növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb

Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, 2016-cı il aprelin 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.

AZƏRTAC xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.

Sərəncama əsasən, 1998-ci ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Qeyd edək ki, Prezident İlham Əliyev 2016-ci il martın 7-də Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.


## ELANLAR

Hacallı kənd tam orta məktəbini 1986-1987-ci tədris ilində bitirmiş **Eyyubova Şükufə Cəllad qızına** verilmiş 280566 №-li **attestat** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam kənd sakini **Əfəndiyeva Sahibə İbrahim qızının** adına verilmiş JN-314A №-li (kodu 40600048) olan **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

«Azərboru» (Azərbaycan boru yayma) zavodu tərəfindən zavodun turba prokat sexində 6-cı dərəcə ilə çilingər işləyən Qəbələ (o vaxt Qutqaşən) rayonunun Vəndam qəsəbə (kənd) sakini **Alışayev Məmmədhüseyn Məmmədsəid oğluna** verilmiş **əmək kitabcası** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Dövlət Əmlakının idarə olunması və özəlləşdirilməsi Departamenti tərəfindən 8 sentyabr 2004-cü il tarixdə 002453 qeydiyyat №-ci ilə (reystr kitabı №-4, səh. 57) **Rəhimov Arif Fazil oğlunun** və **Nezirov İlqar Qulu oğlunun** adına verilmiş **Dövlət Əmlakının Hüquqi və fiziki şəxslərə satılması haqqında şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Dövlət Əmlakının idarə edilməsi üzrə Dövlət Komitəsi tərəfindən 31 oktyabr 2008-ci il tarixli 001615 №-li qeydiyyatla (reystr kitabı №-3, səh.95) **Rəhimov Arif Fazil oğlunun** və **Nezirov İlqar Qulu oğlunun** adına verilmiş özəlləşdirilən müəssisə və obyektlərin, habelə fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş obyektlərin yerləşdiyi **Dövlət torpaq sahələrinin salınmasına dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 №-li qərarla Dandıx kənd sakini **Qocayev Ramazan Göygöz oğlunun və ailə üzvlərinin** adına verilmiş JN:0025 nömrəli (kodu 40615058) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyəti Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş Bum qəsəbə sakini

**ŞİRİNOV SAHİL HƏSRƏT OĞLUNUN**

vəfatından kədərlənir, əzizlərinə və mərhumun ailə üzvlərinə dərin hühznlə başsağlığı verir.

Qəbələ Qızıl Aypara Bölməsinin sədri Sədaqət Bayramova Qarabağ uğrunda döyüşlərdə şəhid olan Bum qəsəbə sakini

**SAHİL HƏSRƏT OĞLU ŞİRİNOVUN**

vəfatından kədərlənir, əzizlərinə və rayon ictimaiyyətinə dərin hüznlə başsağlığı verir.

FHN Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Elnur Müzəffərova,** əmisi

**FİRUDİN ƏZƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.